**UOT 338.48**

***Nicat Saleh oğlu MUSAYEV***
***Azərbaycan Texniki Universiteti, dissertant***
***E-mail: nijat.musayev@gmail.com***

# TURİZM SFERASINDA TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMLƏRİN İŞLƏNİLMƏSİNƏ TƏSİR GÖSTƏRƏN ƏSAS PROSESLƏRİN MƏRHƏLƏLƏRLƏ İCRA MODELİ

***Xülasə***

*Məqalədə turizm sferası ilə əlqəli sahələrin, ölkənin sabit iqtisadi inkişafının təminatı nəticəsində əhali gəlirlərinin artırılması, mövcud risklərin azaldılması amili kimi müxtəlif təsərrüfat fəaliyyəti növlərinin inkişaf etdirilməsinin vacibliyi vurğulanır. Turizmin inkişaf etdirilməsinin təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi istiqamətində görüləcək tədbirlərin əlaqələndirilməsinin onun həllində açar rolunu oynayacağı qeyd edilir.*

*Turizm sənayesinin təşkilati-iqtisadi mexanizmlərinin strukturunun işlənməsinə təsir göstərən əsas proseslərin mərhələlərlə həll edilməsinin fərqli modeli təklif edilir. Azərbaycanda turizm sənayesinin inkişaf etdirilməsinə istiqamətləndirilmiş dövlət siyasətinin təmin edilməsinin təşkilati-iqtisadi mexanizminin fəaliyyətində tez-tez istifadə olunan alətlər qruplaşdırılır.*

**Tədqiqatın məqsədi** – turizm sferasında təşkilati-iqtisadi mexanizmlərin işlənilməsinə təsir edən problemlərin mərhələli həlli modelini təklif etməkdir.

**Tədqiqatın metodologiyası** – Azərbaycanda turizm sfersının regionlarda təşkili prosesi, onun inkişaf etdirilməsi və beynəlxalq turizmin cəlbediciliyinin yüksəldilməsi nöqteyi-nəzərindən kifayət qədər vacib elementlər kimi baxılır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - Azərbaycanın beynəlxalq turist cəlbediciliyinin dünya ölkələri içərisində önəmli mövqe tutması, regionların sosial-iqtisadi inkişafında turizmin rolunun açıqlanması və bu sferada təşkilati-iqtisadi proseslərin həlli üçün səmərəli tətbiq mexanizminin strukturunun hazırlanmasının vacibliyi izah edilir.

**Tədqiqatın nəticələri** - Turizmin inkişaf etdirilməsinin təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi istiqamətində görüləcək tədbirlərin əlaqələndirilməsinin onun həllində açar rolunu oynayacağı əsaslandırılır və turizm sənayesinin təşkilati-iqtisadi mexanizmlərinin strukturunun işlənməsinə təsir göstərən əsas proseslərin mərhələlərlə həll edilməsinin fərqli modeli təklif edilir. Bu isə turizm sferasında bir sıra çətin problemlərin həllinə dəstək olacaqdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - Turizm sənayesinin spesifikliyi və mövsümiliyi onun təşkilati-iqtisadi mexanizmlərinin strukturunun işlənilməsinə təsir edən proseslərin üç mərhələdə səmərəli həllini müəyyən edir. Turizm sferasında bu problem məsələlərin həllinə istiqamətləndirilmiş dövlət siyasətinin təmin edilməsinin təşkilati-iqtisadi mexanizminin fəaliyyətində tez-tez istifadə olunan alətlərin qruplaşdırılması təklifi işdə elmi yenilikdir.

***Açar sözlər: turizm, təşkilati-iqtisadi mexanizmlər, proseslər, model, əsas açar alətlər.***

## *Giriş*

Son dövrlərdə turizm dünya miqyasında milyonlarla insanı səfərbər edən, iqtisadi inkişafa təkan verən, müxtəlif millətlərin insanları arasında anlaşma, ünsiyyət və tolerantlığın yaxşılaşmasına kömək edən bir növ sosial hadisəyə çevrilmişdir. Odur ki, fiziki, sosial və iqtisadi imkanlardan asılı olmayaraq, müasir cəmiyyətin hər hansı bir üzvü üçün turizm sənayesi infrastrukturunun mövcudluğu çox vacib şərtdir. Turizm fəaliyyəti iqtisadiyyatın güclü amili olmaqla bərabər, eyni zamanda həm təsirli sosial institut, həm də cəmiyyətin hərtərəfli inkişaf etdirilməsində, o cümlədən ictimai rifah və mədəniyyət səviyyəsini müəyyən edən göstərici kimi insanların yaşayış səviyyəsinin yüksəldilməsində, onun mənəvi zənginləşdirilməsində həlledici rol oynayır [3, s.111-116].

**Mövcud ədəbiyyatlara istinad**

Turizm fəaliyyəti perspektivli istiqamətlərdən biri kimi çıxış edir və bu fəaliyyət nisbətən aşağı xərclərlə ölkənin sosial-iqtisadi inkişafını təmin edən kompleks məsələlərin həll edilməsinə əlverişli şərait yaradır. Bu baxımdan turizm sferası ilə əlqəli sahələrin, o cümlədən bu sahədə tədqiqat aparan alimlər ölkənin sabit iqtisadi inkişafının təminatı nəticəsində əhali gəlirlərinin artırılması, mövcud risklərin azaldılması amili kimi regionlar üzrə müəssisələrdə və təsərrüfatlarda müxtəlif təsərrüfat fəaliyyəti növlərinin inkişaf etdirilməsinin vacibliyini vurğulayır, həmçinin, həm yerli, həm də xarici təcrübəyə əsaslanmaqla qeyd edirlər ki, turizm sferasının dayanıqlı inkişafının təmin edilməsi bilavasitə bu məsələlərin həllinin səmərəli istiqamətidir [2, s.35-43].

Turistlər səyahətin müxtəlif tələbatlarını qarşılamağa can ataraq, aldıqları təəssüratlara getdikcə daha təcrübəli və tələbkar olurlar. Bu da öz növbəsində turizm sənayesinin təşkilati-iqtisadi aspektlərinin inkişafının təkmilləşdirilməsi istiqamətində müvafiq qurumların qarşısında mühüm tələblər qoyur. Azərbaycan Respublikasında 2011-ci ilin “Turizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 20 iyul 2011-ci il 1644 nömrəli Sərəncamından sonra Azərbaycanda turizm xüsusilə dinamik inkişaf etmiş, ölkədə daxili və xarici turizmin inkişafı istiqamətində qəbul edilmiş Strateji Yol Xəritəsi üzrə də tədbirlər planında nəzərdə tutulmuş məsələlərin ardıcıl olaraq həyata keçirilməsi bilavasitə turizm məhsulları arasında rəqabətin güclənməsini şərtləndirir. 2010-cu illə müqayisədə 2019-cu ildə turizm məqsədi ilə Azərbaycana gələn turistlərin sayında 2,2 dəfə artımın olması turizmin müxtəlif növləri üzrə seqmentlərin tutumunu artırır, bu isə turizm bazarının subyektlərini daha dar məqsədli seqmentlərə istiqamətləndirərək, turizm məhsullarının şaxələndirilməsi, orijinallığının və unikallığının təmin edilməsi imkanlarını araşdırmağa məcbur edir [6, s. 562-569]. Bu qeyd etdiklərimiz ölkədə turizmin inkişafının aktivləşdirilməsi üçün zəmin yaradır.

Artıq son illərdə ölkəmizdə turizmin inkişafı sahəsində dövlət siyasətinin formalaşdırılmasına baxmayaraq, bu sahədə dünya təcrübəsində istifadə olunan mexanizmlər və dəstək tədbirləri hələlik sistemliliyi ilə fərqlənmir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyat və turizm sahəsində dövlət siyasətinin ayrı-ayrı alətləri və mexanizmləri arasında inteqrasiya və koordinasiya əlaqəsinin yaradılması vacibdir [7, s. 22-27]. Belə ki, qeyd edilən sahələrin mexanimləri (alətləri) arasında inteqrasiyanın olmaması, bir tərəfdən regionların sosial-iqtisadi inkişaf problemlərinin həllində turizm potensialından səmərəli istifadə edilməsinə, digər tərəfdən sağlamlıq-istirahət turizmi məqsədi ilə bu əraziləri seçən şəhər əhalisi və xarici vətəndaşların tələbatının təmin edilmə ehtimalının aşağı olmasına gətirib çıxarır. Turizm sənayesinin inkişafı üzrə dövlət siyasətində nəzərdə tutulmuş məsələlərin həlli bu sahədə təşkilati-iqtisadi mexanizmlər arasında koordinasiya əlaqəsi yaradılmadan həll edilə bilməz [8, s.83-88]. Bu, ilk növbədə, regionlarda turizmin inkişafını müəyyən edən perspektiv və istiqamətlərin təyin edilməsinə, eləcə də turizmin səmərəli inkişafını təmin edən həlledici tədbirlərin və metodların layihələşdirilməsinin həyata keçirilməsinə aid edilir [1, s.112-119].

**Turizm sənayesinin təşkilati-iqtisadi mexanizmlərinin strukturunun işlənməsinə təsir edən proseslərin mərhələlərlə həlli modeli**

Müasir turizm bir çox amillərin təsiri altında inkişaf edir. Hal-hazırda bu amillərdən ən önəmlisi turizmin inkişafı üzrə dövlət siyasətinin həyata keçirilməsi proseslərində transformasiyanı və onun ayrı-ayrı növlərinin inkişafı üçün nəzərdə tutulan tədbirləri müəyyənləşdirən yeni iqtisadi şərait hesab edilir. Turizmin inkişafı üzrə dövlət siyasətinin həyata keçirilməsində nəzərdə tutulan transformasiya yalnız turizmin prioritet növlərinin strukturuna deyil, həmçinin turizm sənayesi subyektlərinin stimullaşdırılması və dəstəklənməsi sisteminə, turizm fəaliyyətinin bu və ya digər istiqamətlərinin inkişafının təşkilati-iqtisadi aspektlərinə təsir göstərir.

Müəllifin fikrincə, Azərbaycanda turizmin müxtəlif növlərinin inkişafı aşagıdakı təşkilati-iqtisadi aspektlərin formalaşdırılmasını hərtərəfli əhatə etməlidir: turizmin inkişafına yönəldilmiş dövlət idarəçiliyi orqanlarının gücü və tədbirlərinin əlaqələndirilməsi; ayrı-ayrı tədbirlərin həyata keçirilməsində idarələrarası qarşılıqlı fəaliyyətin gücləndirilməsi, digər nazirlik və təşkilatların

müəyyən tədbirlərin keçirilməsinə cəlb edilməsi; fərqli turizm məhsullarının formalaşmasına, turizm sənayesinə yeni növ müəssisə və xidmətlərin inteqrasiyasına istiqamətləndirilmiş daha sıx və səmərəli sahələrarası əlaqələrin qurulması. Turizmin inkişaf etdirilməsinin təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi istiqamətində görüləcək tədbirlərin əlaqələndirilməsi onun həllində açar rolunu oynayır. Müxtəlif tədqiqatçıların regionlardakı təcrübəsi bu fərziyənin doğruluğunu sübut edir [4, s. 125-137; 5, s. 59-61].

Fikrimizcə, ilk növbədə, gələcək 5 ildə turizmin tənzimlənməsini formalaşdıran mexanizmlərə təsir göstərəcək aşagıdakı hadisələrin əhəmiyyətinin nəzərə alınması məqsədəuyğundur:

- regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq turizm sənayesinin inkişaf etdirilməsi;
- ölkə çərçivəsində turizmin inkişafını təmin edə biləcək yeni layihələrin hazırlanması və tətbiq edilməsi məqsədi ilə xüsusi kreditlərin ayrılması, o cümlədən turizm sferasına xarici investisiya qoyuluşunun sürətləndirilməsi;
- turizm sektorunun formalaşması və inkişaf etdirilməsi məqsədi ilə ölkəyə xarici iqtisadi inteqrasiya aktivlərinin cəlb edilməsi;
- turizm klasterlərinin, komplekslərinin və bu sfera ilə əlaqəli digər iri obyektlərin tikilməsi və işə salınması sahəsində turməhsulların brendinqi və irəliləməsi üzrə reklam xarakterli işlərin görülməsi və məqsədli marketinq səylərinin həyata keçirilməsi. Bu hadisələrin proqnozlaşdırılmasının əsasını ölkə üzrə subyektlərin turizmin inkişafına yönəldilmiş proqram-məqsədli yanaşmaları, həmçinin “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” ndə dörd istiqamətdə müəyyənləşdirilmiş turizmin strateji hədəflərinin səmərəli həyata keçirilməsi təşkil edir.

Yaxın illər ərzində ölkəmizdə yaranmış geosiyasi və iqtisadi trendləri qoruyub saxlamaqla yanaşı, səyyar turist axınının beynəlxalq turistlərlə bərabər daxili turistlərin qəbuluna yenidən istiqamətlənəcəyini proqnozlaşdırmaq lazımdır ki, bu da turizm sahəsində tədqiqatçıların və mütəxəssislərin, hətta ekspertlərin fikirləri ilə eynilik təşkil edir. Bu baxımdan da, turizm şirkətləri turistlərin fərqli məqsədlərinə əsaslanan davranış xüsusiyyətlərini nəzərə almaqla yeni məqsədli auditoriyaların yaranması və turizm bazarının seqmentləşdirilməsinin dərinləşməsini gözləməlidir. Beləliklə, fərqli məqsədli turistlərin axını və dərin seqmentlərə malik olan turizm bazarı formalaşdığı halda turizm məhsulunun potensial satış bazarı genişlənmə imkanına malik olur.

Öz növbəsində, qeyd etdiyimiz bu şərtlər ölkəmizdə fəaliyyət göstərən turizm destinasiyaları arasında rəqabəti kəskinləşdirir ki, bu da qanunauyğun nəticələrə gətirib çıxaracaqdır:

- müxtəlif ərazilərdə yerləşən turizm destinasiyaları özlərinin turizm məhsulunun unikallaşdırılması, onun turistlərin tələbatını ödəməsi baxımından genişləndirilməsi (irəliləməsi) səbəbindən tədbirlərin gücləndirilməsi məcburiyyətində qalır və nəticədə müxtəlif spesifikliyə malik olan turizm növləri göstərilən məsələlərin həllində səmərəli alət kimi çıxış edir;
- müəssisələrin həyat tsiklinin inkişaf qanunauyğunluğuna əsaslanaraq, turizm şirkətləri öz fəaliyyətini optimallaşdırmağa və səmərəliliyini yüksəltməyə çalışacaqdır.

Turizm şirkətlərinin fəaliyyətinin optimallaşdırılmasına və səmərəliliyinin yüksəldilməsinə olan ehtiyacları informasiya və digər turizm xidmətlərinin innovativ texnologiyaları, həmçinin turistlərə göstərilən xidmətin keyfiyyətinin artırılması ilə bağlı turizm bazarının formalaşması və inkişafını stimullaşdıracaqdır. Bu aspekt xüsusilə ölkəmizdə turizm sənayesinin inkişaf etdirilməsi üçün vacib elementlərdən biri hesab edilir. Turizm sənayesinin təşkilati-iqtisadi mexanizmlərinin strukturunun işlənməsinə təsir göstərən əsas proseslərin mərhələlərlə həll edilmə modeli müəllif tərəfindən şəkil 1-də verilmişdir.




***Şəkil 1. Turizm sferasında təşkilati-iqtisadi mexanizmlərin işlənilməsinə təsir göstərən əsas proseslərin mərhələlərlə icra edilmə modeli.***

*Qeyd: müəllif tərəfindən tərtib edilmişdir*

Turizm sferasının təşkilati-iqtisadi mexanizmlərinin strukturunun işlənməsinə təsir göstərən proseslərin mərhələlərlə icra edilməsi modelindən aşağıdakıları qeyd edə bilərik:

**I Mərhələ**. Azərbaycanda fəaliyyət göstərən əsas turizm destinasiyalarında, turist qəbulu baxımından, rəqabətin kəskinləşməsini şərtləndirən proseslərin təşkili məsələlərini əhatə edir:

- turizm məhsulunun unikallığı və orijinallığını artırmağa imkan verən turizmin prioritet inkişafı;
- turizm məhsulunun unikallığı və onun rəqabət üstünlüklərinin gücləndirilməsi istiqamətində sahibkarlıq formalarının inkişaf etdirilməsi;
- turizm şirkətlərinin optimal sayının müəyyən olunması və səmərəli fəaliyyətinin artırılması istiqamətində turizm bazarının inkişafı.

**II Mərhələ.** Beynəlxalq turist axınının maksimum əhəmiyyət kəsb edəcək sayının daxili turizmə istiqamətləndirilməsinin təmin edilməsi:

- turistlərin seçdiyi hədəflərə əsasən onların siyahısının genişləndirilməsi, bunun müqabilində bazarın seqmentləşdirilməsinin dərinləşdirilməsi;
- şirkətlərə müvafiq yeni turməhsulun hazırlanmasına istiqamətləndirilmiş tədbirlərin işlənilməsi;
- müxtəlif resursqənaətli və yeni turməhsul hazırlaya biləcək innovasiyalı texnologiyalara olan tələbat səviyyəsinin müəyyən edilməsi, bu istiqamətdə tədbirlərin hazırlanması.

**III Mərhələ.** Regionlarda müvafiq turizm müəssisələrinin planlarına əsaslanan turizm sənayesinin inkişafının həyata keçirilməsi:

➢ turizm sənayesi üzrə obyektlərin (klasterlər, kompleks və s) tikilməsi və istifadəyə verilməsi;

➢ həmin obyektlərə nisbətən yaxın ərazilərdə turistlərə xidmət göstərən kiçik və orta sahibkarlıq müəssisələrinin yaradılması və formalaşdırılması;

➢ ölkədə fəaliyyət göstərən turizm destinasiyalarında turizmin müxtəlif növlərinin rolunun gücləndirilməsi üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi.

Turizmin təşkilati-iqtisadi aspektlərinin formalaşdırılması mexanizmlərinin işlənilməsi ilə bağlı təklif edilən model əsasında proqnoz qiymətləndirmə çərçivəsində dar istiqamətli, həm də kompleks tədbirlərin formalaşdırılması gözlənilir. Kiçik və orta sahibkarlıq təşəbbüsünün stimullaşdırılması obyektləri qismində aşağıdakılar çıxış edə bilər:

- informasiya texnologiyalarının internetdə və müxtəlif turizm şirkətləri mühitində istifadəsi üzrə layihələr;
- turizm sferasında innovativ biznes texnologiyalarının tətbiqi;
- turizmin brendinq xidməti, yəni fərdi şəxslər, müəssisə və təşkilatlar tərəfindən fərqli xidmətlərin göstərilməsi və turizm məhsullarının təbliğ edilməsi istiqamətində marketinq layihələri;
- turizm sferasında kiçik və orta sahibkarlığın inkişafı.

Bu hadisələrin müəyyən edilməsi turizmin dəstəklənməsi və stimullaşdırılması tədbirlərinin sistemli tətbiqinə keçid üçün əlverişli variantın seçiminə şərait yaradır. Qeyd etmək lazımdır ki, bir qayda olaraq, turizm sferasının təşkilati-iqtisadi mexanizmlərinin işlənilməsi ilə əlaqəli kompleks tədbirlər epizodik və yerli xarakter daşıyır. Ümumiyyətlə, turizmin strateji inkişafında müəyyənləşdirilmiş qərarların yerinə yetirilməsi üzrə nəzərdə tutulmuş göstəricilərə nail olmağı təmin edən və regionların turizm-rekreasiya kompleksinin formalaşdırılması məsələlərinə uyğun olan tədbirlər sistemi turizm sənayesinin səmərəli tənzimləmə mexanizmi hesab edilir. Turizm sənayesinin təşkilati-iqtisadi mexanizmlərinin səmərəliliyini əks etdirən göstəriciləri üç istiqamətdə komplektləşdirmək olar:

- iqtisadi göstəricilər-turizm sferasında tətbiq edilməsi məqsədi ilə qəbul olunmuş yeni layihələrin sayı; bazarda 2 il və daha çox müddət ərzində təşəbbüs göstərən və fəaliyyətdə olan yeni turizm məhsullarının (marşrutlarının) sayı; turizm sferasının inkişafı məqsədi ilə cəlb olunmuş investisiyaların həcmi;
- sosial göstəricilər-turizm sənayesində yeni açılmış iş yerlərinin sayı; bu işlərdə çalışan işçilərin orta aylıq əməkhaqqı; turistlərə yerli əhali tərəfindən fərdi xidmət göstərilməsindən əldə olunan gəlirin həcmi və s.;
- texnoloji göstəricilər-regionların turizm müəssisələri tərəfindən tətbiq edilmiş yeni texnologiyaların sayı; yerli əhalinin qonaqpərvərlik xüsusiyyətlərini əks etdirən məqsədli proqramların tətbiqi; İnternet şəbəkəsində regionun turizm məhsulu üzrə sorğu parametrləri haqqında axtarışlar və onların asan əldə olunma sisteminin mövcudluğu və s.

Bizim fikrimizcə, bu üç qrup göstəricilərin əlçatan olması baxımından birbaşa təsir mexanizmləri daha səmərəli variant hesab edilir. Birbaşa təsir mexanizmləri içərisində ilk növbədə subsidiyalaşdırma və qrant dəstəyinin verilməsi durur, çünki onlarda həm obyektə, həm də stimullaşdırma predmetinə münasibətdə ünvanlılıq əsas şərt hesab edilir. Həmçinin qeyd etmək lazımdır ki, birbaşa təsir mexanizmlərinin məlumatları çevikdir və təsir dairəsinə tez uyğunlaşma xüsusiyyətinə malikdir.

Bundan əlavə, regionların və bələdiyyə qurumlarının turizm sferası ilə əlaqəli digər məqsədli proqramlarla inteqrasiyanı təmin edən mexanizmlər də nisbətən səmərəli variant kimi qəbul edilə bilər. Bu sfera üzrə məqsədli proqramların həyata keçirilməsi zamanı inteqrasiyanı təmin edən mexanizmlərə, hər şeydən əvvəl, bütövlükdə turizm sənayesində regional strateji sənədlərin, o cümlədən müxtəlif layihələrin icraçılarının siyahısının dəqiq müəyyənləşdirilməsi və formalaşdırılması aiddir. Bunlarla yanaşı, regional səviyyədə turizmdə kiçik və orta sahibkarlığın infrastrukturunun inkişafı məqsədilə tətbiq edilən mexanizmlər, o cümlədən informasiya-konsaltinq dəstəyi sistemləri, təhsil-məsləhət kurslarının təşkili tədbirləri, biznes-innovasiya sistemləri və s. səmərəli variantlar hesab edilir.

**Azərbaycanda turizm sənayesinin inkişafı üzrə dövlət siyasətinin təmin edilməsinin təşkilati-iqtisadi mexanizmlərinin açar alətlər qrupu**

Turizmin tənzimlənməsinə təsir göstərən səmərəli mexanizmlərin ayrılmaz, lakin son dərəcə vacib tərkib hissəsi kimi kənd ərazilərində turizmin kiçik və orta sahibkarlığının təbliği və turizm sənayesi ilə əlaqəli fəaliyyət növlərində çalışan əhali qruplarının cəlb edilməsini təmin edən işlər çıxış edə bilər. Azərbaycanda turizmin strateji perspektivində regionlarda turizmin kiçik və orta sahibkarlığının inkişafına sistemli yanaşmanın tətbiqinin inkişafını əhatə edən müxtəlif proqnozların hazırlanması məqsədəuyğun hesab edilir.

Turizmin kiçik və orta sahibkarlığının inkişafını əks etdirən bu tip sistemlilik layihələrin genişləndirilməsinin müxtəlif mərhələlərində sahibkarlıq təşəbbüslərinin stimullaşdırılması, eləcə də regionlar və bələdiyyə səviyyəsində dövlət tənzimlənməsinin müxtəlif alətləri ilə inteqrasiyasında tətbiq edilən mexanizmlərin birləşməsi kimi ifadə ediləcəkdir.

Bizim fikrimizcə, Azərbaycanda turizm sənayesinin təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi istiqamətində təklif olunan bu mexanizmlərdə güclənən inteqrasiya meyilləri mütləq nəzərə alınmalıdır. Bu istiqamətdə güclənən inteqrasiya meyilləri, ilk növbədə, turizm və kənd təsərrüfatı sferalarının birgə fəaliyyəti, eləcə də mədəniyyət sənayesinin inteqrasiyası çərçivəsində kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqələndirilir. Həmçinin, turizmin inkişafını müəyyən edən, turizmin prioritet vəzifələri və amilləri də daxil edilməklə onun tənzimləyici alətlərinin şaquli qarşılıqlı əlaqəsinin formalaşdırılması və qarşılıqlı tamamlanmasının məqsədəuyğunluğu mütləq nəzərə alınmalıdır. Tədqiqta işində təklif edilmiş bu müddəalara uyğun olaraq, Azərbaycanda turizmin inkişafına istiqamətlənmiş dövlət siyasətinin təmin edilməsinin təşkilati-iqtisadi mexanizminin əsaslarını müəyyən edə bilərik. Beləliklə, dissertasiya işində turizm sənayesinin inkişafı üzrə dövlət siyasətinin təmin edilməsinin təşkilati-iqtisadi mexanizmlərinin əsasına ikisəviyyəli bazada baxılmasının məqsədəuyğunluğu vurğulanır: dövlət, regionlar səviyyəsində. Dövlət və regionlar səviyyəsində qəbul edilmiş strateji əhəmiyyətli sənədlər isə müvafiq olaraq yerli özünüidarəetmə və mikro-səviyyədə realizasiya edilməklə turizmin inkişafına əhəmiyyətli təsir göstərəcəkdir.

Azərbaycanda turizm sənayesinin inkişaf etdirilməsinə istiqamətləndirilmiş dövlət siyasətinin təmin edilməsinin təşkilati-iqtisadi mexanizminin əsaslarının tərkibində onun həyata keçirilməsinin subyektləri, həmçinin müəyyən bir səviyyədə realizasiyası mexanizminin fəaliyyətinin məqsədi, eləcə də tez-tez istifadə olunan alətlər qruplaşdırılaraq verilmişdir (şəkil 2).

Turizmin inkişafı üzrə dövlət siyasəti tiplərinin bu cür bölüşdürülməsi ölkəmizdə turizmin inkişafı üzrə strateji sənədlərin ikisəviyyəli bazasının formalaşdırılmasını nəzərdə tutur. Müəllifin fikrincə, dövlət səviyyəsində “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” ndə müəyyənləşdirilmiş turizmin strateji hədəfləri çərçivəsində turizm sənayesinin inkişafına dəstəyin məqsədi, vəzifələri, prioritetləri və mexanizmlərini müəyyən edən altproqramların hazırlanması məqsədəuyğundur.

Azərbaycan Respublikasının subyektləri səviyyəsində turizmin inkişafı üçün ayrıca strateji sənədin (strategiyanın, proqramların) olması: Bakı şəhərinin turizm potensialının tam gerçəkləşdirilməsi; turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılması; yerli və xarici turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi və turistlərin məmnunluğunun artırılması məqsədilə milli turizm keyfiyyət sisteminin yaxşılaşdırılması istiqamətlərində olan hədəfdə nəzərdə tutulmuş turizmin regionlar üzrə müxtəlif növlərinin bu sferanın prioritet istiqamətlərindən biri olduğunun elmi-praktiki cəhətdən əsaslandırılması və onun bilavasitə həmin regionlarda genişləndirilməsi məqsədəuyğundur. Müəllifin fikrincə, turizmin şaxələndirilmiş fərqli növlərinin ölkənin regionlarına xas olduğunun müəyyən edildiyi və ya yalnız ayrı-ayrı bələdiyyə qurumları və turizm-klasterləri üçün prioritet təşkil etdiyi ərazilər üçün müvafiq yarımproqramların turizm inkişaf proqramı çərçivəsində hazırlanması və onun həyata keçirilməsi məqsədəuyğun hesab edilir.

**Turizm sənayesinin inkişafı üzrə dövlət siyasəti: dövlət səviyyəsi**
- Subyektlər: Az.Dövlət Turizm Agentliyi, Az.Kənd Təsərrüfatı Nazirliyi, Az.İqtisadiyyat Nazirliyi, Az. Ekologiya Nazirliyi, AHİK və s.
- Məqsəd: turizm sənayesinin dayanıqlı seqmenti kimi turizmin inkişafı üçün şəraitin yaradılması
- İstifadə olunan alətlər: turizmin inkişaf strategiyasına (proqramı) inteqrasiya, iqtisadiyyatın turizm sənayesi ilə əlaqəli sahələri (kənd təsərrüfatı, ekologiya, dini qurumlar və s.), kiçik və orta sahibkarlıq təsərrüfatları, vergi, informasiya, investisiya fondları, marketinq alətləri, təbliğat-təşviqat tədbirləri, klaster yanaşması.

**Turizm sənayesinin inkişafı üzrə dövlət siyasəti: regionlar səviyyəsi**
- Subyektlər: regionlar üzrə turizm şirkətləri, kənd təsərrüfatı, iqtisadiyyat,ekologiya və s. nazirliklərinin regional idarələri, gənclərlə iş, iqtisadiyyat və sahibkarlıq
- Məqsəd: regionda turizmin inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, turizmin inkişafı üzrə layihələrin dəstəklənməsi
- İstifadə olunan alətlər: iqtisadi, təşkilati və birgə mexanizmlərdən kompleks şəkildə istifadə

**Yerli özünüidarəetmə (turizm sferası ilə əlaqəli əhali və sahibkarlıq subyektlərinin onun inkişafına cəlb edilməsi )**
- Subyektlər: yerli administrasiya mütəxəssisləri, turizmin inkişafına məsul şəxslər, kənd təsərrüfatı, sahibkarlıq, dini, tarixi muzeylər və milli qoruqlar, mədəniyyət
- Məqsəd: Turizm sferası ilə əlaqəli əhali və sahibkarlıq subyektlərinin turizmin inkişafına cəlb etdirilməsi, turizm sənayesinin fəaliyyətini əks etdirən layihələrin dəstəklənməsi
- İstifadə olunan alətlər: maliyyə, informasiya-məsləhət, marketinq, təbliğat-təşviqat mexanizmləri, dövlət-özəl tərəfdaşlığı, həmkarlar ittifaqı komitələri

**Mikro-səviyyə ( turizm müəssisələri və təşkilatları )**
- Subyektlər: turizm sənayesinin hüquqi şəxsləri və sərbəst məşgul olan əhali (fiziki şəxslər)
- Məqsəd: turizm sənayesində sahibkarıq və qeyri-kommersiya fəaliyyətinin həyata keçirilməsi
- İstifadə olunan alətlər: layihə idarəetmə alətləri, strateji menecment, turizm məhsulunun təbliğ edilməsi və reklamı, turizm subyektləri haqqında İnternet şəbəkələrindən yararlanmanın əlçatan olması

***Şəkil 2. Azərbaycanda turizm sənayesinin inkişafı üzrə dövlət siyasətinin təmin edilməsinin təşkilati-iqtisadi mexanizmlərinin əsas alətlər qrupu.***

*Qeyd: Şəkil müəllif tərəfindən tərtib edilmişdir.*

Yuxarıda qeyd edilən strateji sənədlərin məzmununda turizmin inkişafı üzrə anlayış aparatı, məqsəd, vəzifə və prioritetlərin dəqiqləşdirilməsi ilə yanaşı idarələrarası qarşılıqlı fəaliyyətin müddəaları və mexanizmlərinin işlənib hazırlanması və istifadə olunan alətin dövlət tənzimlənməsi səviyyələri arasında əlaqələndirilməsi kimi məsələlər mütləq öz əksini tapmalıdır. Fikrimizcə, Azərbaycanda turizmin dayanıqlı inkişafını təmin edən dövlət siyasətində idarələrarası qarşılıqlı fəaliyyətin nisbətən perspektivli sahələri aşağıdakılar hesab edilir:

- dövlət və beynəlxalq səviyyəli fondlar, banklar, qrant layihələri və turizmin inkişafına dəstək verən digər əlaqəli təşkilatlar tərəfindən turizm layihələrinin hazırlanması və həyata keçirilməsinə uzunmüddətli kredit, subsidiya, qrant və s. kimi birbaşa maliyyə dəstəyi;
- turizm sənayesinin inkişafı çərçivəsində, həmçinin regionlar üzrə mövcud və yeni turizm məhsulunun formalaşması və təbliğatı-təşviqatı sahəsində xarici ölkələrin təcrübəsindən yararlanmaqla dövlət-özəl tərəfdaşlığının tətbiqi;

- AHİK-in xətti ilə dünya ölkələrinə Azərbaycanda fəaliyyət göstərən sanatoriya-kurort xidmətləri, qiymətlərin kifayət qədər aşağı olması, keyfiyyətli müalicə ocaqlarının reklamı istiqamətində beynəlxalq konfrans, simpoziumların təşkili, videoçarxlar vasitəsi ilə iştirakçıların müalicəvi əhəmiyyətli yeraltı suların kimyəvi tərkibi, müalicədə istifadə edilən palçıqlar, müalicənin nəticəsi və s. kimi təbliğat-təşviqat məqsədli tədbirlərlə tanış edilməsi;
- turizm sferasında informasiya, məsləhət, maarifçilik və təhsil fəaliyyəti, İnternet şəbəkələrində yeni turizm məhsulu haqqında məlumatların genişləndirilməsi və s.

***Nəticə***

Beləliklə, idarələrarası qarşılıqlı fəaliyyətin qeyd edilən iki mexanizminin prioriteti tam mənada saxlanılır:

1. Turizmin inkişafı üzrə daimi fəaliyyət göstərən ictimai orqanların təşkili və fəaliyyət göstərməsi.

2. Turizm sferasında idarələrarası qarşılıqlı fəaliyyət mexanizminin hərtərəfli müşahidəsini əhatə edən texnoloji xəritələrin işlənib hazırlanması və təsdiq edilməsi.

Turizmin dövlət tənzimlənməsinin səviyyələri arasında istifadə olunan alətin koordinasiyasına gəldikdə isə, bizim tərəfimizdən koordinasiya ilə əlaqəli tədbirlər tövsiyə edilir ki, bunlara da aşağıdakılar aiddir: turizmin inkişafı üzrə ayrı-ayrı tədbirlərin siyahısının, eləcə də turizmin şaxələndirilmiş növlərinin inkişafı məqsədilə yerli bələdiyyələrə subsidiyaların verilməsi qaydasının formalaşdırılması üzrə işlər; regionlarda fəaliyyət göstərən turizm şirkətlərinin administrasiyaları, yerli bələdiyyələr, kənd əraziləri və şəhər dairələrinin mütəxəssislərinin iştirakını təmin edən xüsusi əlaqələndirmə vasitələrinin, o cümlədən əlaqələndirmə orqanlarının yaradılması; turizmin inkişafı üzrə idarələrarası qarşılıqlı fəaliyyət çərçivəsində peşəkar cəmiyyətin, nazirliklərin və turizm komplekslərinin ekspertlərindən ibarət koordinasiyanın yaradılması, turizm şirkətlərinin fəaliyyətində yeni turməhsulun genişləndirilməsini şərtləndirən tədbirlərin hazırlanması və reklam olunması.

**ƏDƏBİYYAT**


1. Məmmədova, Ü.İ. Turizm sektorunun dövlət tənzimlənməsi sahəsində beynəlxalq təcrübə // - Bakı: AMEA İqtisadiyyat İnstitutu. “Elmi əsərlər” toplusu, -2018. №3, s.112-119.
2. Исмайлов, В.И. Пути развитие агротуризма в Азербайджане//-Москва: Журнал «ERJYJVİCKE TRENDY», -2017. № 1, с. 35-43.
3. Сангадиева, И.Г. Грантовая поддержка местных инициатив сельских сообществ как фактор устойчивого развития сельских территорий //-Бурятск: Вестник Бурятской Государственной Сельскохозяйственной Академии им. В.Р. Филиппова, -2014. № 1 (34), с.111-116.
4. Сайдашева, О.В. Формирование туристических дестинаций как фактор устойчивого развития региональной экономики / соиск. Учен. Степени канд. экон. наук., дис./- Краснодар, - 2013.-167 с.
5. Салишева, Э.Г. Организационно-экономический механизм стимулирования развития предприятий сферы туризма в Республике Башкортостан // -Москва: Вестник Национальной академии туризма, -2012. № 3, -с. 59-61.
6. Ismayilov, V. I. The main directions of formation of tourism-recreation complex in Azerbaijan // -Moskou: Journal Business Economics, -2017. Issue 2, -pp. 562-569.
7. Jayathilake, B. Tourism and Economic Growth in Sri Lanka: Evidence from Cointegration and Causality Analysis // Malaysia: International Journal of Business, Economics and Law, -2013. Vol. 2, -iss. 2, -pp. 22–27.
8. Ruiz, L. Strategic Environmental Assessment of Towns in Ecuador with Tourism Potential //- USA: Journal of Building Construction and Planning Research, -2016. Vol. 4, -pp. 83–88.

*Ниджат Салех оглы Мусаев*
*Азербайджанский Технический Университет*

# Поэтапная модель выполнения основных процессов, влияющих на разработку организационно-экономических механизмов в сфере туризма

**_Резюме_**

*В статье подчеркивается важность развития различных видов хозяйственной деятельности, связанных со сферой туризма, как фактора увеличения доходов населения, снижения существующих рисков в результате обеспечения устойчивого экономического развития страны. Отмечается, что координация мероприятий по совершенствованию организационно-экономических аспектов развития туризма будет играть ключевую роль в его решении.*

*Предложена иная модель поэтапного решения основных процессов, влияющих на функционирование структуры организационно-экономических механизмов туристской отрасли. В Азербайджане группируются инструменты, часто используемые в деятельности организационно-экономического механизма обеспечения государственной политики, направленной на развитие индустрии туризма.*

**Цель исследования** - предложить модель поэтапного решения проблем, влияющих на разработку организационно-экономических механизмов в сфере туризма.

**Методология исследования** - процесс организации сферы туризма в Азербайджане с точки зрения ее развития и повышения привлекательности международного туризма рассматривается как достаточно важные элементы.

**Значение исследования** - объясняется важность определения международной туристической привлекательности Азербайджана в странах мира, выявления роли туризма в социально-экономическом развитии регионов и разработки структуры эффективного механизма применения для решения организационно-экономических процессов в этой сфере.

**Результаты исследования** - обосновано, что координация мероприятий по совершенствованию организационно-экономических аспектов развития туризма будет играть ключевую роль в его решении, предложена дифференцированная модель поэтапного решения основных процессов, влияющих на функционирование структуры организационно-экономических механизмов туристской отрасли. Это будет способствовать решению ряда сложных проблем в сфере туризма.

**Оригинальность и научная новизна исследования**-специфика и сезонность туристской отрасли определяют эффективное решение процессов, влияющих на разработку структуры ее организационно-экономических механизмов, в три этапа. Предложено группировка инструментов, часто используемых в деятельности организационно-экономического механизма обеспечения государственной политики, направленной на решение данных проблемных вопросов в сфере туризма, что является научной новизной в работе.

***Ключевые слова: туризм, организационно-экономические механизмы, процессы, модель, основные ключевые инструменты.***

*Nijat Saleh Musayev*
*Azerbaijan Technical University*

**A step-by-step model of the implementation of the main processes affecting the development of organizational and economic mechanisms in the field of tourism**

***Summary***

*The article emphasizes the importance of the development of various types of economic activities related to tourism as a factor of increasing incomes of the population, reducing existing risks as a result of ensuring sustainable economic development of the country. It is noted that the coordination of measures to improve the organizational and economic aspects of tourism development will play a key role in its solution.*

*A different model of step-by-step solution of the main processes affecting the functioning of the structure of organizational and economic mechanisms of the tourism industry is proposed. In Azerbaijan, the instruments often used in the activities of the organizational and economic mechanism for ensuring state policy aimed at the development of the tourism industry are grouped.*

**The purpose of the study** - to propose a model of step-by-step solution of problems affecting the development of organizational and economic mechanisms in the field of tourism.

**Research methodology -** the process of organizing the tourism sector in Azerbaijan from the point of view of its development and increasing the attractiveness of international tourism is considered as quite important elements.

**Significance of the research** - explains the importance of determining the international tourist attractiveness of Azerbaijan in the countries of the world, identifying the role of tourism in the socio-economic development of regions and developing the structure of an effective mechanism for solving organizational and economic processes in this area.

**Research results** - it is proved that the coordination of measures to improve the organizational and economic aspects of tourism development will play a key role in its solution, a differentiated model of step-by-step solution of the main processes affecting the functioning of the structure of organizational and economic mechanisms of the tourism industry is proposed. This will contribute to solving a number of complex problems in the field of tourism.

**Originality and scientific novelty of the research** - the specifics and seasonality of the tourism industry determine the effective solution of the processes affecting the development of the structure of its organizational and economic mechanisms in three stages. A grouping of tools often used in the activities of the organizational and economic mechanism for ensuring state policy aimed at solving these problematic issues in the field of tourism is proposed, which is a scientific novelty in the work.

***Key words: tourism, organizational and economic mechanisms, processes, model, main key tools.***